UOT: 339.5
JEL: F 10

ƏLIXANLI Y. C.
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

AZƏRBAYCANDA XARİCİ TİCARƏT FƏALİYYƏTİNİN MAKROİQTİSADİ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİMƏSİ

Xülasə

Tədqiqatın məqsədi: xarici ticarət fəaliyyətinin Azərbaycanda bəzi makroiqtisadi göstəricilərə təsirinin qiymətləndiriməsi

Metodologiya: regresiya analizi, kointeqrasiya və səhvlərin düzəldilməsinin modelləşdirilməsi

Əsas nəticələr: Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə olan təsirlərinin ekonometrik hesablanması göstərir ki, hər üç göstəricinin ÜDM həcminə təsirləri pozitivdir. Azərbaycanda xarici ticarət həcminin, xüsusilə idxalın artırılması üçün hər hansı tədbirlərin, o cümlədən liberallaşma tədbirlərinin ÜDM həcminə mənfi təsiri ilə bağlı arqumentlərin əsası yoxdur.

Açar sözlər*: tədiyyə balansı, xarici ticarət balansı, ümumdaxili məhsul, idxal, ixrac*

GİRİŞ

Xarici ticarətin iqtisadi inkişafda rolu həmişə mübahisə predmeti olub. Xarici ticarətin genişlənməsini və ya məhdudlaşdırılmasını dəstəkləyən nəzəriyyələrin hər birinin əsaslı hesab ediləbiləcək arqumentləri var. Qloballaşmanın genişlənməsi və dünya təsərrüfat sisteminin formalaşması ölkələrarası əlaqələri nə qədər gücləndirsə də xarici ticarətin mütləq liberallaşması, demək olar ki, heç bir ölkədə həyata keçirilməyib. Hər bir ölkə xarici ticarətə bütünlükdə və ya hər hansı mal və xidmətin ticarətinə müəyyən səviyyədə məhdudiyyətlərin qoyulmasını dəstəkləyir. Ölkənin iqtisadi və siyasi müstəqilliyini, həmçinin daxili bazarı qorunmaq, o cümlədən, ölkədə iş yerlərinin saxlanılmasına cəhd, yeni yaradılan sənaye müəssisələrinin öz mövqelərini möhkəmlətməsinə yardım etmək, yerli istehsalçıların dünya bazarında rəqabətliliyini gücləndirmək üçün onlara dəstəyin verilməsi, bəzi mal və xidmətlərin ixracına və ya idxalına məhdudiyyətlərin qoyulması, ölkəni onun hər hansə mal və xidmətə görə asılı olduğu ölkədən siyasi asılılığını aradan qaldırmaq və ya sanksiyalardan qorumaq və sair məsələlər xarici ticarətin məhdudlaşdırılması üçün ciddi arqument ola bilər.

Xarici ticarətin mahiyyəti ilə bağlı dualist yanaşma qloballaşmanın dərinləşməsi ilə daha da kəskinləşib. Heç bir ölkə daxili tələbat üçün vacib olan bütün mal və xidmətləri istehsal edə bilməz. Xüsusilə, əhalizi az və ya texnoloji cəhətdən zəif inkişaf etmiş ölkələrdə böyük sayda mal və xidmətlərin istehsalı üçün istehsal amillərini təmin etmək mümkün deyil. Digər tərəfdən, müqayisəli üstünlük sahələrində istehsal edilən artıq mal və xidmətlər üçün yeni bazarların əldə edilməsi də xarici ticarəti zəruri edir. Lakin qeyd etdiyimiz kimi, belə əlaqələrin mövcudluğu iqtisadi təhlükəsizlik üşün müəyyən təhdidlər yarada bilər.

Xarici ticarətin iqtisadi artıma təsirləri ilə bağlı iqtisadi ədəbiyyatda yanaşmalar müxtəlifdir. Bu yanaşmaların bəzi nəticələrini aşağıdakı kimi qruplaşdırmaq olar. 1) xarici ticarət ölkənin daxili istehsalının ixtisaslaşmasına səbəb olur; 2) xarici ticarət əməliyyatları iqtisadiyyatda xarici amil rolunu yerinə yetirərək müasir texnologiyanın, ölkə iqtisadiyyatına daxil olmasına şərait yaradır; 3) iqtisadiyyatın miqyasının böyüməsinə səbəb olur.

Xarici ticarətin iqtisadi inkişaf üçün rolu ilə bağlı Azərbaycanda da birmənalı yanaşma yoxdur. Son 25 ildə Azərbaycanın xarici iqtisadi əlaqələri sürətlə genişlənsə də bəzi mal və xidmətlərə qoyulan məhdudiyyətlər xarici ticarətin iqtisadi təhlükəzilik və daxili bazar üçün yarada biləcəyi təhdidlərlə bağlıdır. Belə olan şəraitdə xarici ticarətin iqtisadi artıma və digər makroiqtisadi göstəricilərlə əlaqəsinin izlənilməsinə ciddi ehtiyac var.

Ədəbiyyata baxış

Hələ merkantilistlər belə hesab edirdilər ki, ölkənin qızıl ehtiyatlarının artırılması xalqın

rifahının təməlidir. Pul vəsaitləri, xüsusilə qızıl və gümüş ordu saxlamağa imkan verir, hökmdarın mövqeyini gücləndirir, qızılın toplanması müstəmləkə müharibələrinin aparılmasına, fabriklərin (manufakrutaların) tikilməsinə, yeni iş yerlərinin yaradılmasına şərait yaradır. Xarici ticarətin genişlənməsi isə qızıl əldə edilməsinə yönəldilməlidir, çünki adi məhsul mübadiləsi zamanı (məsələn, yun və şərab) hər iki məhsul istifadə edilərək mövcud olmayacaq. Bu zaman ticarətə sıfır miqdarla oyun kimi baxılırdı, bir iştirakçının qələbəsi avtomatik olaraq digərinin məğlubiyyətidir və əksinə.

A. Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqda araşdırmalar" əsərində xalqların sərvətinin təməlində əmək bölgüsünün durması ideyası irəli sürülür. Müəllif xarici ticarətin iqtisadi inkişafda mühüm rolunu qeyd edərək belə nəticəyə gəlir ki, beynəlxalq əmək bölgüsündə fəal iştirak edən ölkələr xeyir götürürlər. Beynəlxalq əmək bölgüsü isə, A. Smitin iddiasına görə, bu və ya digər ölkənin malik olduğu mütləq üstünlükləri nəzərə alınmaqla həyata keçirilməlidir.

Beynəlxalq əmək bölgüsü nəzəriyyəsinin sonrakı inkişafı D. Rikardonun adı ilə bağlıdır. O sübut edə bildi ki, A. Smit tərəfindən araşdırılan mütləq üstünlüklər ümumi qaydanın xüsusi halını təmsil edir. Hətta hər iki məhsula görə daha yüksək istehsalat xərclərinə malik olan ölkələr belə məhsul mübadiləsindən fayda götürə bilərlər. A. Smit və D. Rikardo belə hesab edirdilər ki, məhsul istehsalına təsir edən əsas amil əməkdir və onun qiyməti əməyin dəyərindən asılıdır. Hər iki mütəfəkkir qiymətin əmək nəzəriyyəsinin tərəfdarı idilər. Sonrakı tədqiqatlarda torpaq və kapital da əsas istehsal amilləri kimi. Əgər əməyin bazar dəyəri işçinin aldığı maaşın həcmi idisə, kapitalın dəyəri faiz dərəcəsilə, torpağın dəyəri isə torpaq icarəsinin həcmi ilə müəyyən edilirdi.

Keçən əsrin 30-cu illərdə İsveç alimləri E. Hekşer və B. Olin D. Rikardonun nəzəriyyəsini daha da təkmilləşdirdilər. Hekşer-Olin nəzəriyyəsinin əsas müddəalarına görə 1) ölkədə o məhsulların ixracına meyllilik müşahidə olunur ki, onların hazırlanması üçün ifrat dərəcədə olan istehsal amillərindn istifadə edilsin, və əksinə, o məhsulları idxal edirlər ki, onların istehsalı üçün nisbətən nadir amillər lazım olsun; 2) beynəlxalq ticarətdə, müvafiq şərtlər daxilində, "amil dəyərinin" tarazlaşdırılmasına meyllilik müşahidə edilir; 3) məhsulların ixracı istehsal amillərinin yerdəyişməsi ilə əvəz edilə bilər. E. Hekşer və B. Ohlin D. Rikardonun ardıcılları olaraq, həm məhsulların, həm də istehsalat amillərinin ölkələrarası hərəkətini çətinləşdirən müxtəlif məhdudiyyətləri mənfi qiymətləndirirdilər.

Qeyd edək ki, müxtəlif ölkələrdə xarici ticarətin, xüsusilə ixracın iqtisadi artıma təsirləri müxtəlif nəticələrə gətirir. Akanni [1] neft ixracının iqtisadi artıma təsirlərini ən kiçik kvadratlar üsulu ilə ekonometrik hesablayaraq belə nəticəyə gəlir ki, neft sektoruna yönəldilən investisiyaların və neft rentasının iqtisadi artıma təsirləri pozitivdir. Lakin bəzi Afrika ölkələrində neft rentası iqtisadi artımı təmin edə bilmir. Nigeriyanın neft ixracından gələn gəlirlərin iqtisadi artıma olan təsirlərinin də ekonometrik təhlili belə nəticə verir ki, neft ixracının iqtisadi artıma müəyyən qədər təsiri olsa da belə təsirlər mühüm həcmdə deyil. Akanni İndoneziyanın ixracının iqtisadi artıma təsirlərini VAR modeli ilə analiz edərək belə nəticəyə gəlir ki, İndoneziya üçün belə təsirlər güclüdür. Gemechu [3] kointeqrasiya və xətaların düzləndirilməsi metodundan istifadə edərək Həbəşistan üçün ixrac və iqtisadi artım arasında əhəmiyyətli əlaqənin olduğunu göstərir. Erfani [3] 1965-1995-ci illər arası dövrdə Asiya və Latın Amerikası ölkələr üçün ixrac fəaliyyətinin iqtisadi artıma təsirlərini öyrənərək belə nəticə alıb ki, bu iki göstərici arasında pozitiv əlaqə mövcuddur. Hindistan, Pakistan, Filippin, Malayziya və Tailand üçün 1973-1993-cü illəri əhatə edən tədqiqatlarda da ixrac ilə iqtisadi artım arasındakı pozitiv əlaqənin olması, həmçinin xarici ticarətin liberallaşmasının ixrac həcmini və xarici investisiyaların həcminin artması sübut olunur [4].

Balaguer orta-gəlirli ölkələr arasında ixraca köklənmiş ölkələrlə müqayisədə ixraca daha az köklənmiş ölkələrin iqtisadi inkişafını müqayisə edərək belə nəticəyə gəlir ki, birincilər daha sürətli artıma malikdirlər. Bu tədqiqatlar həmçinin sübut edir ki, ixracın dövlət tərəfindən hər hansı formada

dəstəklənməsi iqtisadi artıma ciddi təsir göstərmir [5]. Lin yeni qiymətləndirmə metodu üzrə Çin iqtisadiyyatının keçən əsrin doxsanıncı illərindəki vəziyyətini təhlil edərək sübut edib ki, Çinin ixrac həcminin on faiz artması iqtisadiyyatında bir faiz artıma səbəb olur [6].

Tədqiqatın metodologiyası

Azərbaycanın xarici ticarətinin bəzi makroiqtisadi göstəricilərə, xüsusilə Ümumdaxili Məhsul həcminə və onun artımına təsirlərini müəyyən etmək üçün ən kiçik kvardatlar metodu ilə reqresiya analizindən istifadə ediləcək. Qurulacaq model birinci yaxınlaşmada ÜDM həcminin ticarət balansından, məcmu idxal həcmindən, məcmu ixrac həcmindən asılılıq tənliyi kimi xarakterizə ediləcək. İkinci yaxınlaşmada isə modelə tədiyyə balansı da daxil ediləcək. Birinci yaxınlaşma üçün modeli

$$GDP_t = a_0 + a_1 * İM_t + a_2 * EX_t + a_3 * TB_t + \mu_t \quad (1)$$

İkinci yaxınlaşma üçün isə

$$GDP_t = b_0 + b_1 * İM_t + b_2 * EX_t + b_3 * TB_t + b_4 * BP_t + \gamma_t \quad (2)$$

Kimi ifadə edə bilərik. Burada $İM_t$ - məcmu idxal həcmi; EX_t-məcmu ixrac həcmi; TB_t- ticarət balansı; BP_t -tədiyyə balansı; μ_t və γ_t- qalıqlardır. a_0, a_1, a_2, a_3, b_0, b_2, b_3, b_4 isə əmsallardır.

Əsas hesabalamalar:

İdxalın iqtisadi artıma təsiri ilə bağlı fikirlər iqtisad elmində birmənalı qəbul edilmir. Əksər tədqiqatşılar hətta belə təsirlərin neqativ olması qənaətindədirlər. Ona görə də idxalın iqtisadi artım və iqtisadi inkişaf üçün zərərli ola biləcəyi fikrini və idxalın məhdudlaşdırılması ideyasını daha çox müdafiə edirlər. Lakin tədqiqatlar göstərir ki, idxal əməliyyatı da əmək məhsuldarlığına və beləliklə iqtisadi artıma təsir göstərərək iqtisadi artımı stimullaşdıra bilər. İdxalın iqtisadi artıma təsirlərini də bütün ölkələr üçün universal hesab etmək olmaz. Bu iki göstərici arasındakı əlaqələrin xarakteri ölkədən ölkəyə dəyişir. Bu fərqlər nəinki əlaqənin trendində, hətta nə dərəcədə güclü olmasında özünü göstərir.

Cədvəl №1

ÜDM və bəzi makroiqtisadi göstəricilər (mln ABŞ dolları ilə)

Illər	ÜDM həcmi	Məcmu idxal həcmi	Məcmu ixrac həcmi	Ticarət balansı
	GDP_t	$İM_t$	EX_t	TB_t
1991	703.1	1,881.2	2,121.0	239.8
1992	1309.8	939.8	1,484.0	544.2
1993	1326.9	628.8	724.7	95.9
1994	1629.3	777.9	652.7	-125.2
1995	2415.2	667.7	637.2	-30.5
1996	3180.8	960.6	631.3	-329.3
1997	3960.7	794.4	781.3	-13.1
1998	4446.4	1,076.5	606.1	-470.4
1999	4583.7	1,035.9	929.7	-106.2
2000	5272.8	1,172.1	1,745.2	573.1
2001	5707.7	1,431.1	2,314.2	883.1
2002	6235.9	1,665.5	2,167.4	501.9
2003	7276.0	2,626.2	2,590.4	-35.8
2004	8680.4	3,515.9	3,615.5	99.6
2005	13238.7	4,211.2	4,347.2	136.0
2006	20983.0	5,266.7	6,372.2	1,105.5
2007	33050.3	5,713.5	6,058.2	344.7
2008	48852.5	7,170.0	47,756.0	40,586.0
2009	44297.0	6,123.1	14,701.4	8,578.3
2010	52909.3	6,600.6	26,560.1	19,959.5
2011	65951.6	9,756.0	34,405.7	24,649.7
2012	69683.9	9,652.9	34,160.6	24,507.7
2013	74164.4	10,712.5	32,841.6	22,129.1
2014	75234.7	9,187.7	30,219.8	21,032.1
2015	52996.8	9,216.7	16,592.3	7,375.6
2016	37862.8	8,532.4	13,118.4	4,586.0

Mənbə: ARDSK-nin məlumatları əsasında tərtib edilib [7]

Azərbaycan üçün idxal həcminin ÜDM həcminə təsirlərinin araşdırılması da mühüm elmi və praktiki əhəmiyyəti var. Belə ki, son 25 ildə Azərbaycanda idxal həcminin sürətlə artması iqtisadi fəaliyyət sahələrində, xüsusilə qeyri-neft sektorunda yaradılan dəyərin həcminə təsirsiz ötüşmür. Lakin hər hansı mal qrupunun idxal həcminin artması hələ iqtisdi artımın zəifləməsi ilə nəticələnməyə də bilər. Belə ki, idxal mallarının hər hansı iqtisadi fəaliyyət sahəsində yaradılan dəyəri azaltması nəticəsində o sektordan digər sektorlara keçib baş verə bilər. Məsələn, kənd təsərrüfatı məhsullarına olan tələbatın daha çox idxal malları hesabına təmin edilməsi və bu sektorda yaradılan dəyərin həcminin azalması nəticəsində kənd təsərrüfgatı sektorundan xidmət sektoruna və ya digər sektorlara keçən məşğulların sayını artıra bilər. Bu isə sonda ÜDM həcminin azalması ilə deyil, artması ilə nəticələnə bilər. Beləliklə, hər bir ölkə üçün özünəməxsus xüsusiyyətlərə malik olan iqtisadi konyuktura idxal və ÜDM həcmi arasındakı əlaqənin xarakterini müəyyən edir.

Cədvəl №2

ÜDM həcminin idxal həcmindən asılılığı

Dependent Variable: SERIES02
Method: Least Squares
Date: 01/01/18 Time: 23:54
Sample: 1991 2016
Included observations: 26

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
SERIES03	7.220322	0.420347	17.17706	0.0000
C	-6068.853	2318.473	-2.617608	0.0151

R-squared	0.924777	Mean dependent var	24844.37
Adjusted R-squared	0.921643	S.D. dependent var	26625.31
S.E. of regression	7453.056	Akaike info criterion	20.74444
Sum squared resid	1.33E+09	Schwarz criterion	20.84122
Log likelihood	-267.6777	Hannan-Quinn criter.	20.77231
F-statistic	295.0513	Durbin-Watson stat	0.866773
Prob(F-statistic)	0.000000		

Azərbaycanda son 25 ildə idxal həcmi 1,9 milyard dollardan (1991) əvvəlcə 667 milyon dollara qədər azalmış (1995) sonrakı illərdə isə 10,7 milyard dollara (2013) qədər artmışdır. Lakin dünya bazarında neftin qiymətinin aşağı düşməsi və 2015-ci ildə Azərbaycan manatının devalvasiyası idxal həcminə də mənfi təsir göstərdi. Azərbaycanda idxal həcmi ilə ÜDM həcmi arasındakı əlaqənin reqresiya asılılığında ilkin H_0 hipotezi üçün bu iki göstərici arasında əlaqənin olmamasını qəbul edə bilərik: $b_2 = 0$. Beləliklə, reqresiya tənliyini

$$GDP_t = a_0 + a_1 * \text{İ}M_t + \mu_t \qquad (3)$$

kimi ifadə edə bilərik.

Son 26 il üçün (1991-2016) Azərbaycana idxal həcmi ilə ÜDM həcmi arasındakı əlaqənin ekonometrik hesablamaları (cədvəl 2) göstərir ki, bu iki göstərici arasında correlyasiya əlaqəsi çox güclüdür (R=0,9616) və reqresiya tənliyini

$$\widehat{GDP} == -6068.853 + 7.220 * \text{İ}M_t \qquad (4)$$

kimi ifadə edə bilərik.

Azərbaycanda idxal həcminin ÜDM həcminə pozitiv təsir etməsi idxalın məhdudlaşdırılması ilə bağlı arqumentləri üstələyir. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycanda idxalın artımı ixracın artması ilə paralel baş verib və bu neft gəlirlərinin hesabına əhalinin gəlirlərinin artması ilə daha çox bağlıdır.

ÜDM həcminin ixrac həcmindən asılılığı ilə bağlı geniş tədqiqatlar aparılıb. İxracın iqtisadi artım üçün birbaşa təsiri və zəruriliyi merkantilistlərdən başlayaraq əksər iqtisadçılar tərəfindən təsdiq edilir. Məsələn, Baldwin [8] , Bonelli [9], Haddad [10], Weinhold and Rauch [11], Yean [12], and Sjoeholm [13] və sair tədqiqatçılar ixracın iqtisadi artıma təsirlərini ixracın əmək məhsuldarlığına olan təsirləri ilə əlaqələndirirlər. Baxmayaraq ki, bu iki göstərici arasında əlaqənin ümumi trendi pozitivdir, amma hər bir ölkə üçün onun xarakteri və asılılıq dərəcəsi universal deyil.

Cədvəl №3

ÜDM həcminin məcmu ixrac həcmindən asılılığı

Dependent Variable: SERIES02
Method: Least Squares
Date: 01/01/18 Time: 23:59
Sample: 1991 2016
Included observations: 26

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
SERIES04	1.713632	0.164853	10.39488	0.0000
C	5853.761	2915.388	2.007884	0.0560

R-squared	0.818256	Mean dependent var	24844.37
Adjusted R-squared	0.810683	S.D. dependent var	26625.31
S.E. of regression	11584.82	Akaike info criterion	21.62658
Sum squared resid	3.22E+09	Schwarz criterion	21.72336
Log likelihood	-279.1456	Hannan-Quinn criter.	21.65445
F-statistic	108.0536	Durbin-Watson stat	1.963248
Prob(F-statistic)	0.000000		

Azərbaycan iqtisadiyyatında ixrac həcminin ÜDM həcminə təsirini

$$GDP_t = a_0 + a_1 * EXP_t + \mu_t \qquad (5)$$

kimi ifadə etsək, onda bu iki göstərici arasındakı əlaqə üçün H_0 hipotezi də inkar edilmiş olur.

$$\widehat{GDP}=5853.761 + 1.7136 * EXP \qquad (6)$$

Xarici ticarətin hər iki komponetli ilə ÜDM həcminin ayrı-ayrılıqda əlaqəsinin pozitiv olması Azərbaycan dövlətinin son 26 ildə xarici ticarət fəaliyyətini genişləndirməsi üçün həyata keçirdiyi iqtisadi siyasətin doğru olduğu qənaətinə gətirir. Xarici ticarət rejimlərinin sadələşdirilməsi və xarici iqtisadi fəaliyyətinin liberallaşması Azərbaycanın dünya təsərrüfat sisteminə sürətlə inteqrasiyasına səbəb olub.

Azərbaycada ÜDM həcminin ticarət balansından asılılığının ekonometrik hesablanması da göstərir ki, bu iki göstərici arasında əlaqə güclüdür (R=0,83).

ÜDM həcminin ticarət balansından asılılığı

Dependent Variable: SERIES02
Method: Least Squares
Date: 01/02/18 Time: 00:03
Sample: 1991 2016
Included observations: 26

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
SERIES05	1.974764	0.270176	7.309170	0.0000
C	11414.66	3489.981	3.270695	0.0032

R-squared	0.690018	Mean dependent var	24844.37
Adjusted R-squared	0.677103	S.D. dependent var	26625.31
S.E. of regression	15129.58	Akaike info criterion	22.16049
Sum squared resid	5.49E+09	Schwarz criterion	22.25727
Log likelihood	-286.0864	Hannan-Quinn criter.	22.18836
F-statistic	53.42397	Durbin-Watson stat	1.488523
Prob(F-statistic)	0.000000		

NƏTİCƏ

Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə olan təsirlərinin ekonometrik hesablanması göstərir ki, hər üç göstəricinin ÜDM həcminə təsirləri pozitivdir. Azərbaycanda xarici ticarət həcminin, xüsusilə idxalın artırılması üçün hər hansı tədbirlərin, o cümlədən liberallaşma tədbirlərinin ÜDM həcminə mənfi təsiri ilə bağlı arqumentlərin əsası yoxdur.

ƏDƏBİYYAT SİYAHISI

1. Akanni, O.P. (2007). Oil Wealth and Economic Growth in Oil Exporting Countries, AERC Researcg Oaoer 170.
2. Gemechu, G. (2002). Exports and Economic Growth in Ethiopia – Addis Ababa. Retrieved from University.etd.auu.edu.et/displace/bitsream/123
3. Erfani, H.S. (1999). Exports, Imports and Economic Growth in Semi-industrialized countries. *Journal of Development Economics, 35*, 93-116.
4. Vohra. (2001). Exports and Economic Growth in Developing Countries. Evidence from Time Series and Cross-Section Data. *Journal of Economic Development and Cultural Change, 36*, 51-72.
5. Balaguer, M. (2002, October). Exports and Economic Growth in Bangladesh. *Journal of Development Studies, 35*(1), 89-114
6. Lin, F.C. (1995, July). Export - led Growth and the four little Dragons. *Journal of International - Trade and Economic Development, 4*(2), 203-15.
7. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi (www.stat.gov.az)

8. Baldwin, R. 2003. Openness and Growth: What's the Empirical Relationship? NBER Working Paper No. 9578, National Bureau of Economic Research, Cambridge.

9. Bonelli, R. 1992. "Growth and Productivity in Brazilian Industries: Impacts of Trade Orientation." Journal of Development Economics 39:85–109.

10. Haddad, M., J. De Melo, and B. Horton. 1996. "Trade Liberalization, Exports and Industrial Performance." In M. Roberts and J. Tybout, eds., Industrial Evolution in Developing Countries: Micro Patterns of Turnover, Productivity and Market Structure. Washington, DC: Oxford University Press.

11. Weinhold, D., and J. Rauch. 1997. Openness, Specialization and Productivity Growth in Less Developed Countries. NBER Working Paper No. 6131, National Bureau of Economic Research, Cambridge.

12. Yean, T. 1997. "Determinants of Productivity Growth in the Malaysian Manufacturing Sector." ASEAN Economic Bulletin 13:333–43.

13. Sjoeholm, F. 1999. "Exports, Imports and Productivity: Results from Indonesian Establishment Data. World Development 27:705–15.

Алиханлы Е. С.
Докторант Азербайджанского Университета Кооперации

Оценка макроэкономического воздействия внешней торговли в Азербайджане

Резюме

Цель исследования: Оценка воздействия импорта и экспорта на объем ВВП в Азербайджане

Методология*: регрессионный анализ, метод наименших квадратов*

Основные результаты*:* Была определена, что есть позитивная взаимосвязь между импортом и ВВП Азербайджана, вопреки аргументам защиты внутреннего рынка. А также найдена позитивная взаимосвязь между ВВП и экспортом и торговым балансом в Азербайджане.

Ключевые слова: *торговый баланс, ВВП, экспорт, импорт*

Alikhanlı E. S.
Doctoral candidate of the Azerbaijan University of Cooperation

Assessment of macroeconomic impacts of foreign trade in Azerbaijan

Abstract

Purpose of the research: *Assessment of import and export impacts on GDP volume in Azerbaijan*

Methodology: *regression analysis, least of squares method*

Main results: Has been defined that there is a positive interrelation between import and GDP of Azerbaijan, contrary to arguments for protection of domestic market. As well as the positive interrelations between GDP and export and trade balance in Azerbaijan are found.

Keywords: *trade balance, GDP, export, import*

Daxil olub: 14. 06.2017

Rəy verib*:* AMEA İqtisadiyyat Institutunun "*İqtisadi siyasətin əsaslari"* şöbəsinin əməkdaşı i.f.d *Mustafayev A. M.*